HÜQUQ VƏ İNSAN HAQLARI İNSTİTUTU
PUBLİK HÜQUQİ ŞƏXS

# İLLİK HESABAT

2025 Konstitusiya və Suverenlik İli

1998-ci ildə yaradılan və 2022-ci ildən Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin tabeliyində publik hüquqi şəxs kimi fəaliyyət göstərən Hüquq və İnsan Haqları İnstitutunun (İnstitut) əsas məqsədi hüquqi maarifləndirmə, qanunvericilik layihələrinin təhlili və ekspertizasını həyata keçirməkdir.

## EKSPERTİZA, TƏHLİL, RƏY VƏ TƏKLİFLƏR

- **6** normativ hüquqi akt layihəsinin ekspertizası aparılıb;
- **6** normativ hüquqi akt təhlil olunaraq rəy və təkliflər verilib;
- İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarına dair **7** təklif hazırlanıb;
- **6** beynəlxalq hüquqi sənəd tərcümə olunub.



## TƏDBİR, TƏLİM VƏ TƏQDİMATLAR

**2162** iştirakçı

“Beynəlxalq İnsan Hüquqları Günü”, “Heydər Əliyev: cinayətkarlıqla mübarizə”, “Hüquq sahəsində məqalə dərc edən jurnallara dair ikinci monitorinq hesabatı”nın müzakirəsi, “İnsan hüquqları sahəsində rəqəmsal təşəbbüslər” və digər mövzularda 35 tədbir və təqdimat keçirilib.

**460** iştirakçı

**Geniş əhali qrupu üçün “Əsas insan hüquq və azadlıqlarının Azərbaycan Respublikasının Konstitusiyasında təminatı”, “Sosial davranış. Polis və gənclər”, "Mülkiyyət hüququnun müdafiəsi və Avropa İnsan Hüquqları Konvensiyası", “Uşaq hüquqlarının müdafiəsi” və s. mövzuları əhatə edən 14 təlim keçirilib.**

**282** iştirakçı

**Dövlət qurumlarının əməkdaşları üçün (DİN, prokurorluq orqanları, məhkəmə orqanları, Ədliyyə Nazirliyi, Vəkillər Kollegiyası və s.) “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi", “Mülkiyyət hüququnun müdafiəsi və yerli icra hakimiyyətləri”, “İnsan hüquqları və ətraf mühit”, “Süni intellekt və insan hüquqları” və s. mövzularda 11 təlim keçirilib.**

Ümumilikdə, İnstitutun təşkil etdiyi 67 təlim və tədbirdə **3114** ölkə vətəndaşı iştirak edib.

**210** iştirakçı

Ölkənin 38 şəhər və rayonunda fəaliyyət göstərən 210 **bələdiyyə** nümayəndəsinə “Bələdiyyələrin fəaliyyətində insan hüquqları aspekti” mövzusunda 7 təlim keçirilib.

**İnstitut əməkdaşları həm yerli, həm də beynəlxalq səviyyədə keçirilən 43 konfrans, dəyirmi masa, seminar, təqdimat və vebinarda iştirak ediblər.**





## RƏQƏMSAL RESURSLAR VƏ TƏŞƏBBÜSLƏR

Hüquq jurnalları üzrə axtarış bazası 58 jurnal nüsxəsi və 359 elmi məqalə ilə zənginləşdirilib.

“Audiomeqalələr bazası”na 93 hüquqi məqalə yüklənilib.

“İnsan hüquqlarına dair izahlı E-Lüğət”ə 74 yeni termin daxil edilib.

“Praktikaya Aid Siqnallar Sorğusu (PASS) platforması” vasitəsilə vətəndaşlar tərəfindən qanunvericiliyin tətbiqi mexanizmlərinin təkmilləşdirilməsi üçün 46 təklif irəli sürülüb.

74 şəhər və rayonda insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən müxtəlif qurum və təşkilatların əlaqə məlumatlarını vahid bazada toplayan “Rəqəmsal insan hüquqları resurs xəritəsi" yenilənib.





## NƏŞRLƏR və MƏQALƏLƏR, MONİTORİNQ HESABATI, ƏMƏKDAŞLARIN ELMİ FƏALİYYƏTİ

- “Suverenliyin zəfər yolu: reallaşan ideyalar, hüquqi əsaslar, siyasi paralellər” kitabı çap olunub. Kitabın təqdimatı 19 ali təhsil müəssisəsində, AMEA-nın 2 Elmi Mərkəzində və Konstitusiya Məhkəməsində təşkil olunub. Ümumilikdə, keçirilən 22 təqdimatda 250 nəfər elmi əməkdaş və pedaqoji heyət, 1172 tələbə, 41 məhkəmə işçisi, 10 hüquqşünas və media nümayəndəsi iştirak edib.
- 3500-dən artıq termini izahlı şəkildə təqdim edən “Hüquq terminləri lüğəti” nəşr olunub.
- “Akademik hüquqi yazı kitabçası” çap olunub.
- 3 Monitorinq hesabatı hazırlanıb (Hüquq jurnallarına dair 1 hesabat, Onlayn mediada insan hüquqlarının pozulmasına dair 2 hesabat).
- İnstitut əməkdaşlarının 42 məqaləsi, 6 müsahibəsi qəzet, elmi jurnallar və saytlar da daxil olmaqla, müxtəlif platformalarda dərc edilib.



**İl ərzində 69 dövlət qurumu və təhsil müəssisəsi ilə əməkdaşlıq edilib.**

## KİTABXANA FONDU VƏ VİRTUAL KİTABXANA

- İnstitutun kitabxana fonduna 183 adda yeni vəsait daxil edilib, bununla da fondda ümumi vəsaitlərin sayı 3675-ə çatıb. İnstitutun nəşr etdirdiyi 1409 kitab isə oxuculara hədiyyə edilib.
- Virtual kitabxanaya 502 hüquqi vəsait daxil edilib. Hal-hazırda virtual kitabxanada hüququn müxtəlif sahələrinə aid 2211 vəsait mövcuddur.
- Virtual kitabxanadan 336,394 dəfə aktiv istifadəçi yükləməsi qeydə alınıb. Ümumilikdə, bu müddət ərzində (10 may 2023 – 26 dekabr 2025) platformadan 892,719 dəfə yükləmə edilib.

## MEDİA, SOSİAL ŞƏBƏKƏLƏR VƏ STATİSTİK MƏLUMATLAR

- İnstitutun fəaliyyətinə dair məlumat paylaşan mənbələrin sayı – 121
- Paylaşılan məlumat və xəbərlərin sayı – 202
- Paylaşılan məlumat və xəbərlərə baxış/oxu sayı – 136,711
- Sosial şəbəkələrdə postların sayı – 905
- Sosial şəbəkələrdə bəyənmə sayı – 22 823

AZ1073, Azərbaycan, Bakı şəhəri,
H. Cavid pr. 125 (Akademiya şəhərciyi)

İnstitutun saytı www.lhri.az
e-mail ünvanı info@lhri.az
facebook fb.com/www.lhri.az
instagram @lhri.az